Yeni dünya nizamı insan hüquq və azadlıqlarının etibarlı təminatı məsələsini hər bir dövlətin demokratik inkişafının ayrılmaz hissəsinə çevirmişdir. Bütün sivil dövlətlərdə ümumi qayğı və məsuliyyət predmeti kimi nəzərdən keçirilən bu meyar hüquqi dövlət quruculuğu yolu ilə inamla irəliləyən müstəqil Azərbaycanın da ictimai-siyasi həyatında özünə möhkəm dayaqlar tapmışdır. Respublikamızın müstəqillik illərində dinamik inkişaf yolu keçməsi, qlobal miqyasda mövqelərini, nüfuzunu möhkəmləndirməsi, ilk növbədə qanunların aliliyinin təminatı, məhkəmə-hüquq islahatlarının həyata keçirilməsi keyfiyyətli və ədalət mühakiməsinin beynəlxalq standartlarına uyğunlaşdırılması tədbirləri ilə sıx şəkildə bağlı olmuşdur.




# Məhkəmə Hakimləri Assosiasiyası beynəlxalq əməkdaşlığı genişləndirir

Müasir Azərbaycan dövlətinin qurucusu, ümummilli lider Heydər Əliyev xalqın təkidli tələbi ilə hakimiyyətə gəldiyi ilk gündən respublikada dövlət-vətəndaş münasibətlərinin hüquq müstəvisində tənzimləndiyi, insan hüquq və azadlıqlarının məhkəmələrdə maksimum dərəcədə qorunduğu, liberal dəyərlərin möhkəm təmələ çevrildiyi sivil cəmiyyətin yaradılması, demokratik ənənələrin ictimai şüurda möhkəmləndirilməsi istiqamətində genişmiqyaslı islahatların reallaşdırılmasını təmin etmişdir.

Bu mütərəqqi islahatları 2003-cü ilin oktyabrından uğurla davam etdirən Azərbaycan Prezidenti İlham Əliyevin son illərdə ali milli ideya kimi bəyan etdiyi əsas hədəflərdən biri də respublikamızın inkişaf etmiş ölkələr səviyyəsinə çatdırılmasıdır. İqtisadi inkişaf tempinin yüksəldilməsi ilə yanaşı, hüquqi-siyasi islahatların dönmədən davam etdirilməsi, eləcə də məhkəmələrin müstəqilliyinin möhkəmləndirilməsi istiqamətində atılan mühüm addımlar məhz bu ali məqsədə xidmət edir.

Dünya iqtisadi-maliyyə böhranının dərinləşdiyi 2014-2015-ci illərdə Azərbaycanın neqativ meyillərdən maksimum dərəcədə sığortalanması, müsbət inkişaf dinamikasının qorunub saxlanılması paralel olaraq cəmiyyətin hüquq sisteminin liberallaşdırılmasına da geniş imkanlar açmışdır. Ümumiyyətlə isə, dövlətin iqtisadi imkanlarının genişləndiyi son 10 ildə məhkəmə orqanlarında zamanın tələbi ilə səsləşən islahatlar geniş vüsət almışdır: 2004-cü ildən etibarən ədalət mühakiməsinin səmərəliliyinin yüksəldilməsi, obyektiv və şəffaf şəraitdə hakim korpusunun formalaşdırılması, məhkəmə orqanlarının fəaliyyətində şəffaflığın təmin edilməsi, elektron xidmətlərin genişləndirilməsi və bir sıra neqativ halların aradan qaldırılması istiqamətində kompleks tədbirlər həyata keçirilmişdir.

Ötən illərdə Məhkəmə-Hüquq Şurasının məqsədyönlü və səmərəli fəaliyyəti nəticəsində infrastrukturun müasirləşdirilməsi, yeni regional məhkəmələrin formalaşdırılması, habelə hakimlərin sosial müdafiəsinin gücləndirilməsi məsələləri xüsusi diqqət mərkəzində olmuşdur. Bütün bunlar, şübhəsiz, başlıca bir məqsədə - cəmiyyətdə məhkəmə hakimiyyətinə olan inamı artırmağa, ədalət mühakiməsinin səmərəliliyini və keyfiyyətini yüksəltməyə xidmət etmişdir.

Təqdirəlayiq haldır ki, məhkəmə-hüquq sistemində həyata keçirilən islahatlar konkret zamanla məhdudlaşmır, xüsusilə hakim korpusunun komplektləşdirilməsi və yeniləşdirilməsi istiqamətində ardıcıl tədbirlər görülür. Azərbaycan Prezidenti cənab İlham Əliyevin 26 oktyabr 2015-ci il tarixli "Bir sıra birinci instansiya hakimlərinin və Ağstafa Rayon Məhkəməsi sədrinin təyin edilməsi haqqında" sərəncamı ilə bir sıra ümumi yurisdiksiyalı, habelə inzibati-iqtisadi məhkəmələrə yeni hakimlərin və məhkəmə sədrinin təyinatları olmuşdur. Məhkəmə-Hüquq Şurasının təqdimatı əsasında gerçəkləşən bu təyinatlar məhkəmələrin normal iş fəaliyyətinin təminatına xidmət edir.

Dünya Bankı ilə həyata keçirilən "Ədliyyə sisteminin müasirləşdirilməsi" layihəsi çərçivəsində 2012-ci ildən bəri bir sıra rayonlarda və paytaxtda müasir tələblərə cavab verən yeni məhkəmə binalarının inşası, mövcud binaların əsaslı təmir olunması, hakimlərə müasir informasiya-kommunikasiya texnologiyalarının ən son nailiyyətlərindən istifadə imkanlarının yaradılması ümumən ölkədə ədalət mühakiməsinin səmərəliliyinin daha da yüksəldilməsinə, korrupsiyaya qarşı mübarizəyə xidmət edir. Son illər Bakının Yasamal rayonunda, habelə Gəncə, Oğuz və Gədəbəydə belə məhkəmə binaları istifadəyə verilmişdir. Yeni məhkəmə binalarında müasir İKT-nin tətbiqi vətəndaşlarla hakimlər arasında qeyri-prosessual münasibətlərin qarşısını alır. Hazırda demək olar ki, bütün məhkəmələr arasında, o cümlədən Məhkəmə-Hüquq Şurası ilə elektron sənəd dövriyyəsi və sənədlərin avtomatlaşdırılmış idarəetmə sistemi üçün zəruri infrastruktur quraşdırılmışdır.

Bu islahatların davamı olaraq 2015-ci il oktyabrın 21-də ölkə başçısının iştirakı ilə Sabunçu Məhkəmə Kompleksi istifadəyə verilmişdir. Binada Sabunçu Rayon Məhkəməsi, 2 saylı Bakı İnzibati-İqtisadi Məhkəməsi və Ədliyyə Nazirliyinin rayon icra şöbəsi yerləşir. Burada "Elektron məhkəmə"nin tətbiqi üçün bütün zəruri infrastruktur yaradılmışdır.

Noyabrın 4-də isə Azərbaycan Prezidenti cənab İlham Əliyevin Şəki Məhkəmə Kompleksinin inzibati binasının açılış mərasimində şəxsən iştirakı və dərin məzmunlu nitqi məhkəmələrin maddi-texniki bazasının, iş şəraitinin yaxşılaşdırılması tədbirlərinin ardıcıl və sistemli xarakter daşıdığını göstərir. Dövlət başçısı həmin mərasimdəki təntənəli çıxışı zamanı demişdir: *"Azərbaycanda hüquqi dövlət quruculuğu prosesi sürətlə gedir. Əlbəttə ki, məhkəmələrin şəffaflığı, məhkəmələrin işi burada xüsusi rol oynayır. Verilən məlumata görə, son vaxtlar məhkəmə qərarları ilə bağlı daxil olan şikayətlərin sayı azalır. Bu onu göstərir ki, qərarların böyük əksəriyyəti ədalətli qərarlardır. Çünki biz daim ictimai rəyi öyrənirik. Həm Prezident Administrasiyasına, həm də digər dövlət orqanlarına gələn müraciətlərə çox diqqətlə baxılır və hər bir şikayət əsasında araşdırma aparılır. Deməyə əsas var ki, son vaxtlar bu sahədə müsbətə doğru dəyişikliklər göz qabağındadır.*

*Hesab edirəm ki, görüləcək tədbirlər və gələcəkdə aparılacaq islahatlar nəticəsində biz məhkəmə sistemində şəffaflığı maksimum dərəcədə artıra bilərik. Son vaxtlar bu sahədə qəbul edilmiş qərarlar mühüm rol oynayır. Xüsusilə "Elektron məhkəmə" informasiya sisteminin yaradılması, - bu binada artıq bu sistem tətbiq olunur, - həm şəffaflığı təmin edəcək, həm bürokratik əngəlləri aşacaq. Bir sözlə, məhkəmə sistemini daha da müasir və daha da böyük inama malik olan sistemə çevirəcəkdir".*

Təntənəli açılış mərasimində tədbirdə çıxış edən ədliyyə naziri, Məhkəmə-Hüquq Şurasının sədri Fikrət Məmmədovun da vurğuladığı kimi, təkcə Dünya Bankı ilə birgə reallaşdırılan layihə çərçivəsində 40-dək məhkəmə binası müasir standartlara uyğun layihələndirilmiş, qısa müddətdə 11 məhkəmə üçün yeni, müasir binalar istifadəyə verilmişdir. Hazırda bir o qədər məhkəmə üçün də yeni binalar inşa olunmaqdadır. Bu binalarda vətəndaşların rahatlığı məqsədilə hər cür imkanların yaradılması bir çox problemləri, habelə korrupsiya üçün şəraiti aradan qaldırır. Azərbaycan hökuməti ilə birgə həyata keçirən bu layihəni Dünya Bankı beynəlxalq aləmdə ədliyyə sahəsində ən uğurlu layihə kimi qiymətləndirir.

İndiki mərhələdə vacib məsələlərdən biri də Azərbaycanın təkcə iqtisadi deyil, həm də hüquqi sahədə - məhkəmə orqanlarının müstəqilliyinin möhkəmləndirilməsi, onların fəaliyyətinin cəmiyyətin sosial tələbatına adekvat olaraq müasirləşdirilməsi istiqamətindəki mühüm nailiyyətlərini beynəlxalq müstəvidə geniş təbliğ etmək, respublikamız haqqında obyektiv təsəvvür formalaşdırmaqdır. Məhkəmələrlə bağlı müxtəlif əcnəbi təşkilatlarda təmsilçilik müasir dövrdə bir tərəfdən respublika hakimlərinin beynəlxalq təcrübə ilə yaxından tanış olmaları, digər tərəfdən isə Azərbaycanın bu sahədə əldə etdiyi nailiyyətləri dünyaya çatdırmaları baxımından mühüm əhəmiyyət kəsb edir. Respublikamızda bu cür ictimai qurumların fəaliyyəti hakimiyyətin müxtəlif qolları arasında qarşılıqlı faydalı əməkdaşlığın, sağlam və işgüzar dialoqun təşviqi, habelə hakimlərin səmərəli təkliflərinin dəstəklənməsi, onların nəzəri-praktiki bilik və təcrübələrini bölüşmələri üçün səmərəli platform rolunu oynayır.

Fəaliyyətə başladığı 2002-ci ildən hakimlərin fəaliyyətinin vahid ictimai institut çərçivəsində əlaqələndirilməsinə, məhkəmələrin müstəqilliyinin möhkəmləndirilməsinə, digər ölkələrin məhkəmə təcrübəsinin öyrənilərək səmərəli tətbiqinə, müsbət meyillərin təbliğinə, qanunların təkmilləşdirilməsinə çalışan Azərbaycan Respublikası Ümumi Məhkəmə Hakimlərinin İctimai Birliyi bu istiqamətlərdə mühüm nəticələrə nail olmuşdur. Birliyin məhkəmələr və hakimlərlə iş sahəsində ixtisaslaşmış Beynəlxalq Hakimlər Assosiasiyası (BHA) və onun regional qurumu olan Avropa Hakimlər Assosiasiyası (AHA) ilə sıx əməkdaşlığı da respublikamızın beynəlxalq nüfuzunun güclənməsinə, əcnəbi təcrübənin öyrənilərək praktik şəkildə tətbiqinə xidmət edir.

Xüsusi vurğulamaq istərdim ki, Azərbaycan Respublikası Ümumi Məhkəmə Hakimləri Assosiasiyasının təmsilçisi olaraq son illər ərzində müxtəlif ölkələrə işgüzar səfərlərimiz zamanı respublikamızın beynəlxalq nüfuzunun artdığının böyük qürur hissi ilə şahidi oluruq. BHA və onun regional qrupu olan Avropa Hakimlər Assosiasiyasının müxtəlif ölkələrdə keçirilən illik toplantıları ümumən beynəlxalq ictimaiyyətdə respublikamızın məhkəmə-hüquq sistemi barədə dolğun təsəvvürlərin formalaşması baxımından mühüm əhəmiyyətə malikdir. Son illər bu qurumların Mərakeş, Fransa, Malta, Niderland, Türkiyə, ABŞ, Ukrayna, Kipr, Braziliya, Polşa və digər ölkələrdə keçirilmiş yüksək səviyyəli illik iclaslarında ölkə hakimlərinin təmsilçisi kimi bunu aydın şəkildə görmüşük. Bu tədbirlərin hər biri Azərbaycanın məhkəmə-hüquq sistemi ilə bağlı əsl həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması və qarşılıqlı təcrübə mübadiləsi baxımından son dərəcə əhəmiyyətli olmuşdur.

BHA-nın oktyabrın 5-dən 8-dək İspaniyada keçirilmiş 58-ci illik iclasının yekunları da bu baxımdan diqqətçəkici məqamlarla zəngin oldu. Avropa qitəsinin özünəməxsus ənənələrə, zəngin mədəniyyətə malik dövlətlərindən olan İspaniya təşkilatçı kimi tədbirin yüksək səviyyədə keçməsini təmin etmişdi: 300-dək qonağın yüksək səviyyəli hotellərdə yerləşdirilməsi, onların normal işləməsinə, şəhərlə tanışlığına, istirahətinə lazımi şəraitin yaradılması yüksək təşkilatçılıqdan xəbər verirdi. İspaniya və məşhur Barselona şəhəri ilə tanışlıq, bu uzaq məkanda Azərbaycan haqqında hansısa müsbət fikir eşitmək xüsusilə xoş təəssürat doğururdu.

BHA-nın oktyabrın 5-də Barselona şəhərinin "Obra Socio La Caixa Forum" mərkəzində öz işinə başlayan illik iclasını Kataloniya Hakimlər Birliyinin sədri açdı. Kataloniyanın ədliyyə naziri, Məhkəmə-Hüquq Şurasının sədri, Dünya Hakimlər Assosiasiyasının prezidenti, Dünya Hakimlər Assosiasiyasının baş katibi iclas iştirakçılarını salamladılar. Çıxış edənlər dünyanın fərqli regionlarında məhkəmə hakimiyyətinin müstəqilliyi, hakimiyyətin digər qolları ilə əməkdaşlığı, insan hüquqlarının qorunmasında, cəmiyyətin demokratikləşməsində məhkəmə hakimiyyətinin rolu və digər mühüm məsələlərin müzakirəsində, problemlərdən çıxış yollarının tapılmasında BHA-nın iclaslarının vacibliyini vurğuladılar.

BHA-nın prezidenti xanım K.Krespo davam etdirərək illik hesabat məruzəsinin məzmunu ilə bağlı məlumat verdi. Məruzə ilə əvvəldən tanış olan nümayəndələr hesabatı bəyənərək yekdilliklə dəstəklədilər. BHA-nın prezidentinin məruzəsində əksini tapan əsas məsələlər bunlardan ibarət idi: 1) Müxtəlif tədbirlərdə iştirak; 2) Beynəlxalq qurumlarla sıx əməkdaşlıq çərçivəsində onların tədbirlərində iştirak; 3) Çətin duruma düşmüş milli assosiasiyaların hökumətləri ilə danışıqların aparılması və s.

Açılış mərasimindən sonra qısa fasilə elan olundu və regional qruplar öz işlərinə başladılar. Azərbaycan nümayəndə heyətinin də qatıldığı Avropa Regional Qrupunun işində, ümumilikdə, 43 ölkənin təmsilçiləri iştirak edirdi. Avropa Regional Qrupunun prezidenti, BHA-nın birinci vitse-prezidenti Kristof Regnardın il ərzində AHA-da keçirilmiş tədbirlər, ayrı-ayrı ölkələrə edilmiş səfərlər, qurumun məhkəmə hakimiyyəti ilə bağlı beynəlxalq tədbirlərdə iştirakı, digər təşkilatlarla əməkdaşlığı və birgə layihələrdən bəhs edən hesabat məruzəsi maraqla qarşılandı. Cənab K.Regnard Türkiyə və Ukrayna milli hakimlər birliklərinin üzləşdiyi problemlərin həlli üçün həmin ölkələrin müvafiq hakimiyyət strukturları ilə aparılmış danışıqlar və əldə olunan nəticələr barədə də məlumat verdi. Qısa müzakirələrdən sonra məruzə ümumən bəyənildi və Avropa Regional Qrupunun illik fəaliyyəti məqbul sayıldı.

Sədrin məruzəsinin müzakirəsindən sonra "Brüsselə gedən yollar" adlı işçi qrupunun üzvləri son bir il ərzində görülmüş işlər barədə məlumat verdilər. İşçi qrupunun başçısı, AHA-nın sədr müavini Jose Manuel İgreja Matos çıxışında milli birliklər, QHT-lər və hökumətlərlə aparılmış işlər barədə məlumat verərək əldə edilmiş uğurlardan və çətinliklərdən danışdı. Bildirildi ki, işçi qrupunun fəaliyyətinin əsas məqsədi Avropada məhkəmələrin müstəqilliyinin, vətəndaşların məhkəmələrə maneəsiz şəkildə müraciət etmək imkanlarının təmin olunması məqsədilə ardıcıl tədbirlər keçirməkdən ibarətdir.

İclasda üzv assosiasiyaların vəziyyəti ilə bağlı BHA-nın Mərkəzi Şurasına və regional qruplara məruzələrin hazırlanması və təqdim olunması layihəsi müzakirə edildi. Yunanıstan, Böyük Britaniya, İsveçrə nümayəndələrinin təklifləri dinlənildi və layihə bəzi düzəlişlərlə qəbul edildi.

Sonra BHA-nın Mərkəzi Şurasının əsas fəaliyyət sahələrindən biri kimi "Hakimlərin Universal Xartiyası"nın mətni üzərində aparılan işlə bağlı məlumat verildi. Bildirildi ki, xartiyanın mətni yaxın zamanlarda tamamlanaraq müzakirəyə çıxarılacaq.

Xorvatiya, Türkiyə və Ukrayna milli hakimlər birliklərinin istəyi əsasında onların ölkələrinin rəhbərliklərinə müraciətin qəbulu məsələsi də növbəti müzakirə mövzusu oldu. Məsələ ilə bağlı işçi qrupunun sədri cənab Peter Kaas məlumat verdi. O, iddia etdi ki, Türkiyədə hakimlərin müstəqilliyinin vacib şərtlərindən biri olan hakimin yerdəyişməzliyi prinsipi pozulur: hakimlər ciddi səbəb və onların razılığı olmadan bir yerdən başqa yerə göndərilirlər və bu yerdəyişmələrdən təzyiq vasitəsi kimi istifadə edilir.

Ukraynadakı vəziyyətə gəlincə, işçi qrupunun sədri cənab Peter Kaas bildirdi ki, ölkədə iqtisadi və siyasi böhran yaşanır. İqtidar ilə məhkəmə hakimiyyəti arasında münasibətlər həddən artıq gərgindir, hakimlərə ciddi təzyiqlər var.

Ukrayna Hakimlər Assosiasiyasının sədri xanım Yelena Yevtuşenko çıxışında söylədi ki, siyasi hakimiyyət məhkəmə hakimiyyətini məhv etməyə çalışır. Onun iddiasına görə, siyasi hakimiyyət bütün hakimləri yeniləri ilə əvəz etmək istəyindədir.

Xorvatiya nümayəndəsi çıxışında bildirdi ki, hakimlərin seçkisi zamanı əsas rolu xüsusi xidmət orqanlarının rəyi oynayır. Siyasi hakimiyyət addımbaşı məhkəmə hakimiyyətinin işinə qarışır. Beləliklə, hər üç ölkə ilə bağlı qətnamə mətnlərinin tərtib edilməsi və Dünya Hakimlər Birliyinin müzakirəsinə çıxarılması qərarı iclas iştirakçıları tərəfindən dəstəkləndi.

İclasda cənab Kristof Regnard Avropa Şurası institutları, xüsusilə də CEPEJ ilə əməkdaşlıq barədə məlumat verərək bildirdi ki, yeni qanun layihələrinin hazırlanması ilə əlaqədar yeni işçi qrupunun yaradılmasına ehtiyac var. Beləliklə, AHA-nın illik büdcəsi haqda katibliyin məlumatı dinlənilərək bəyənildi. AHA-nın 2016-cı ildə keçiriləcək növbəti iclasına İsrail Hakimlər Assosiasiyası öz namizədliyini verdi və təklif yekdilliklə qəbul edildi.

BHA-nın Mərkəzi Şurasının oktyabrın 6-da keçirilən iclasında isə sədrin və baş katibin illik hesabatları dinlənilərək bəyənildi. Daha sonra Avropa Regional qrupu üzrə sədr Kristof Regnardın, Amerika və Okeaniya Regional qrupu üzrə cənab Toni Paqonun, Afrika Regional qrupu üzrə cənab Businin, İbero Amerikan Regional qrupu üzrə cənab Rafael de Menezesin məlumatları dinlənildi. Hər bir regional qrupun problemli üzv assosiasiyaları dəstəkləmək üçün hazırladığı qətnamələr müzakirə edilərək qəbul olundu. İclasda həmçinin İraq Hakimlər Assosiasiyasının Beynəlxalq Hakimlər Assosiasiyasına üzvlüklə bağlı müraciətinə də baxıldı və böyük əksəriyyət tərəfindən dəstəklənərək qəbul edildi.

Günün ikinci yarısında Azərbaycan nümayəndə heyətinin də üzv olduğu II Araşdırma Qrupunun 2015-ci ildə virtual müzakirəyə verdiyi "Mülki və cinayət işlərində məhkəmə və ekspertiza arasında münasibətlər" mövzusunun canlı müzakirəsi keçirildi. Professor Tonynin rəhbərliyi ilə aparılan müzakirələr zamanı hər bir ölkə öz təcrübəsindən söz açdı və maraqlı diskussiyalar aparıldı. Digər ölkələrin nümayəndələri çıxışlarında Azərbaycan nümayəndə heyətinin müzakirəyə çıxardığı mövzunun aktuallığından və əhəmiyyətindən söz açdılar.

BHA-nın oktyabrın 7-də keçirilən iclasında təşkilati məsələlərin müzakirəsi davam etdirildi. Qurumun illik büdcəsi, dünyadakı iqtisadi-maliyyə böhranı nəzərə alınmaqla, bir qədər ixtisar edildi. Daha sonra Dünya Ədliyyə Fondu barədə məruzə dinlənilərək bəyənildi. BHA-nın 2016-cı ildə olacaq illik iclasının Meksikada keçirilməsi təklifi də müzakirə olunaraq dəstəkləndi.

Oktyabrın 8-də BHA-nın Türkiyə, Ukrayna, Xorvatiya və Uruqvay hakimlər assosiasiyalarındakı çətin durumla bağlı həmin ölkələrin rəhbərliklərinə ünvanladığı qətnamələrin mətnləri təsdiqləndi. İclasın sonunda dörd araşdırma qrupunun rəhbərlərinin məruzəsi və yeni mövzular təsdiq edildi. Beləliklə, BHA-nın illik iclası öz işini uğurla başa çatdırdı.

Sevindirici haldır ki, İspaniya səfəri çərçivəsində ölkəmizin və onun hüquq sisteminin inkişafı haqqında xoş fikirlər eşitdi. Müxtəlif ölkələrdən olan hakimlərlə söhbətlər zamanı Azərbaycanda həyata keçirilən iqtisadi, siyasi və hüquqi islahatlar barədə ətraflı məlumat verdik. İkitərəfli görüşlərdə həmçinin bildirdik ki, son illər hakimlərin sosial vəziyyətinin, iş şəraitinin yaxşılaşdırılması istiqamətində davamlı tədbirlər həyata keçirilmiş, regionlarda yeni inzibati-iqtisadi və ağır cinayətlər məhkəmələri yaradılmış, hakimlərin sayı artırılmış, iş yükü azaldılmışdır.

Müşahidələrimiz deməyə əsas verir ki, Azərbaycanda hər bir hakim üçün köməkçilərin ayrılması ilə bağlı təcrübəyə hətta bir çox inkişaf etmiş ölkələrdə belə rast gəlinmir. Hazırda Azərbaycanda hakimlər köməkçi, katib və operatorların köməyindən yararlana bilirlər. Bu, iş yükünün nisbətən azalmasına, habelə işlərə baxılmasında keyfiyyətin və operativliyin artmasına səbəb olur. Bir çox ölkələrdə hakimlərin iş yükü Azərbaycan hakimlərinin iş yükündən çox olduğu halda, onlar üçün belə geniş imkanlar yaradılmamışdır.

Ümumiyyətlə, İspaniya səfəri maraqlı təəssüratlarla, səmərəli görüş və müzakirələrlə yadda qaldı. Görüşlərdə onu da qeyd etdik ki, BHA ilə əməkdaşlıq Azərbaycan hakimlərinin beynəlxalq məhkəmə əməkdaşlığının genişləndirilməsinə, hakimlərin peşəkarlığının artırılmasına, səmərəli fikir və təcrübə mübadiləsinə, habelə ümumi məsələlərin həllinə töhfə verəcəkdir.

Ədliyyə işçilərinin noyabrın 22-də qeyd olunacaq peşə bayramı ərəfəsində böyük razılıq hissi ilə qeyd etmək istərdik ki, respublikamızda ardıcıl və sistemli şəkildə həyata keçirilən məhkəmə-hüquq islahatları beynəlxalq miqyasda diqqətlə izlənir, təqdir olunur. Azərbaycan bu gün beynəlxalq miqyasda sadəcə zəngin neft-qaz ölkəsi kimi deyil, həm də demokratik dəyərlərə, insan hüquq və azadlıqlarına hörmətlə yanaşan, sürətlə modernləşən dövlət kimi tanınır.

***Əlaəddin CƏFƏROV,***
***Yasamal Rayon Məhkəməsinin və Azərbaycan Məhkəmə Hakimləri Assosiasiyaları İttifaqının sədri***